«ƏHMƏD AĞAOĞLU VƏ TÜRK DÜNYASI»
Beynəlxalq elmi konfransın
MATERİALLARI
Bakı, 16 noyabr 2023-cü il

PROCEEDINGS
of International Scientific Conference on
«AHMET AGAOGLU AND THE TURKIC WORLD»
Baku, 16 November 2023

https://doi.org/10.59849/iscaatw.2023.117

Nəzakət Hüseynova*

ƏHMƏD AĞAOĞLUNUN YARADICILIĞINDA "TÜRK BİRLİYİ" İDEALI

Xülasə

"Türk birliyi", "türkçülük" ideyası Əhməd Ağaoğlu yaradıcılığının əsas qayəsini təşkil edir. Onun əsərlərində bu ideologiyanın həm sətiraltı-simvolik, həm birbaşa anlamda, həm də alleqorik metodla təqdimi ilə qarşılaşırıq ki, bu da zaman və məkan baxımından məqsədəuyğun sayılır.

Zaman-zaman türklərin varlığından, birləşməsindən çəkinən güclər hər vəchlə onların əsas olaraq dillərini unutdurmağa çalışmışlar. Çünki, "dil" hər bir millətin var olması deməkdir. Dili unudulan millət özü də məhv olmuş sayılır. Necə ki, ərəb, fars, rus istilası zamanı türk xalqları bu basqı ilə üzləşmənin acı nəticələrini yaşadılar. Ərəb, fars, rus dillərinin hakim olduğu və məqsədli formada türkcənin qadağan edildiyi, əsas olaraq yazışmaların başqa dillərdə həyata keçirildiyi zamanlarda da onlar bütün əzablara qatlanaraq dillərini qorudular. Elə indinin özündə də İranda yaşayan türklər öz dillərini məktəbsiz, Universitetsiz ağır şərtlər altında yaşadırlar.

Ə.Ağaoğlunun təbirincə desək: "xalqların varlığının səbəbi mədəniyyət/sivilizasiya deyil, millətin, ilk növbədə, dilin konkret varlığıdır. Yəni "milli kimliyi" yaradan və saxlayan amillər mənəvi deyil, maddidir".

Açar sözlər: Əhməd Ağaoğlu, "Türk birliyi", "türkçülük", ideal, milli kimlik

* Bakı Dövlət Universiteti Azərbaycan mühacirət ədəbiyyatı və bədii tərcümə elmi tədqiqat laboratoriyasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent, h_nezaket@yahoo.com

Birliyə qoşulan Türkün ANDI: *"Yerin, gökün, canlı cansız herşeyin yaradanı yuca Tanrıya şu andı içiyoruz: Haktan başka bir kimseye uymayacağız! Elimiz var işliyecek, ayağımız var yürüyecek! Usumuz var düşünecek, gönlümüz var duyacak! Bir-birimize sarılacağız: Varlığa, yokluğa, açlığa, tokluğa, bolluğa, sıkıntıya bakmıyacağız! Yürüyeceyiz! Hiç bir engel bizi durdurmuyacak! Sönmüş ocaklarımızı ışıqlandırmak, dağılmış yurdumuzu kurmak için yürüyeceğiz!"*

Əhməd Ağaoğlu

Giriş. Tədqiqatın metodu: tarixi-müqayisəli

Tədqiqatın məqsədi: Ə.Ağaoğlunun Türk birliyi idealını tarixilik və müasirlik kontekstində incələmək.

Tədqiqatın elmi yeniliyi: Ə.Ağaoğlunun yaradıcılığından ana xətt kimi keçən türkçülük və türk birliyi idealını əsərlərə dayanaraq, sətiraltı, simvolik, rəmzi anlamlarını açmaqla, türk tarixində baş verən acı həqiqətlərin əsl mahiyyətini, səbəblərini üzə çıxarmaq.

Əsas hissə. Türk birliyi, türkçülük ideyası Ə.Ağaoğlu yaradıcılığının əsas qayəsini təşkil edir. Onun əsərlərində bu ideologiya həm sətiraltı-simvolik, həm alleqorik, həm də birbaşa anlamda təqdim olunur ki, bu da zaman və məkanın tələbindən irəli gəlirdi. Məsələn, onun "Ben neyim" əsəri həm rəmz və simvollara, həm də alleqorik təsvirlərə dayanan ümumtürk ideologiyası aşılayan bir mənbə kimi diqqət çəkir. İlk baxışdan oxucuya sadə görünən, I şəxsin təkində (Ben neyim?), sual formasında təqdim olunan əsərin adı əslində "biz" cəmlik, ümumtürk anlamını rəmzi ifadə vasitəsilə təsvir edən yazıçı, uzun müddət ərəb, fars, rus və b. istilalara məruz qalmış türklərin beyinlərində incə-incə dönüş yaratmağa çalışır: "Bir müddetten beri bende garib ve müz'iç bir ihtiyaç doğmuştur: Kendi kendimi müşahide altına almak! Kendimi olduğum kibi görmek ve gördüğüm kibi meydana koymak!

Hiç şüphe etmiyorum ki bu satırları okuyanlar gülecekler ve kendi kendilerine:

− Bu nasıl adam?.. Hala kendisini bilmiyor: Bu ne kadar şuursuzluk!" − diyecekler [1, s.7]. Əsərdən gətirilən bu sitatdakı "türk birliyi" fəlsəfi düşüncəsi göz önündədir. "Kendimi olduğum gibi görmek ve gördüğüm kibi meydana koymak!" − cümləsinin açımına diqqət edək. Ə.Ağaoğlu "özüm" deyərkən təkcə zamanı ilə SSRİ-i deyilən məkanda rus imperiyasının işğalı altında olan türkləri deyil, habelə İranın, Hindistanın, bir sözlə bütün dünya türklərinin cəmlənmiş obrazı kimi düşünmüşdür. Zaman-zaman türklərin (özlərin) varlığından, birləşməsindən çəkinən başqa millətlər hər vəchlə onların əsas olaraq dillərini unutdurmağa çalışmışlar. Çünki, dil hər bir millətin var olması deməkdir. Dili məhv olan millət özü də məhv olmuş sayılır. Necə ki, ərəb, fars, rus istilası zamanı türk xalqları bu basqının acı nəticələrini yaşadılar. Ərəb, fars, rus dillərinin hakim olduğu və məqsədli formada türkcənin qadağan edildiyi, əsas olaraq yazı dilinin başqa dillərdə olduğu zamanlarda da onlar bütün əzablara qatlanaraq qorudular, elə indinin özündə də İranda yaşayan türklər öz dillərini yaşadırlar. Ağaoğlunun fikrincə: "..din, incəsənət, ədəbiyyat və hətta dil, mədəniyyət və ya sivilizasiyanın elementləri olaraq hər zaman başqa cəmiyyətlərin təsirlərinə açıq olub. Məsələn, tarixdə demək olar ki, dini dəyişməmiş xalq yoxdur. Bu elementlər arasında zamanla ən az dəyişən dildir; hətta təbiəti dəyişməsə də, təkamül qanunlarına tabedir. Bu halda xalqların varlığının səbəbi mədəniyyət/sivilizasiya deyil, millətin, ilk növbədə, dilin konkret varlığıdır. Yəni milli kimliyi yaradan və saxlayan amillər mənəvi deyil, maddidir. Cəmiyyətdəki konkret görünüşlərinə görə bir-birinə bənzəməyən milyonlarla insan kimi, millətləri bir-birindən fərqləndirən də onların maddi varlığıdır" [Türk Yurdu, Ocak 2011, Yıl 100, Sayı 281].

Yazıçının "özünü olduğu kimi görmək" istəyi isə türkləri Allahın yaratdığı bir millət kimi azad görmək, "göründüyüm kimi göstərmək" istəyi isə özgür türk kimi dünya çapında tanınmaq və özünütəsdiq ruhunun aşılanması arzusundan irəli gəlirdi.

"Ben neyim" əsəri bütövlükdə şüurlarda, yaddaşın alt qatında yatan türklük duyğularının oyadılmasına hesablanan təbliğat üsulu dəyərindədir. Təsadüfi deyil ki: "...Hala kendisini bilmiyor: Bu ne kadar şuursuzluk!" – deyərkən yazıçı ilk öncə

Türklərin şüurlarına milli kimliklərini qazımaqla uzun müddət istilalar nəticəsində məcburi surətdə deformasiyaya uğradılmış yaddaşları bərpa etmək istəyini içdən gələn qəlb harayı ilə tənqid edir.

Ə.Ağaoğlu bu əsərində əsl həqiqəti anlatmaq üçün çox maraqlı bədii üslub və metodlardan bəhrələnmişdir. O, əsər boyu "Öz"ünü tanımaq üçün İçim və Dışım deyə alleqorik obrazlarla, bədii təsvir vasitələrindən də çox böyük məharətlə istifadə etməklə məsələnin əsl mahiyyətini açmağa çalışır. İçi ilə Dışını müqayisə edərkən onların arasındakı təzadı, gündüzlə gecə, ağla qara arasındakı təzaddan daha dərin olduğunu qeyd edir: "... Sizi temin ederim ki ben içimden çok samimi ve çok hararetli milliyetperverim; Türkün yükselmesi için çalışmağı, onun izzetinefsini, şerefini, hakkını, hürriyetini müdafaa için kendimi tehlikeye atmağı seve seve kabul ederim. Hele fakir ve aç Türk gördüm mü hiç dayanamam. İsterim ki varımı yoğumu vereyim! Fakat bu pis dışım yok mu? Bana meydan vermir, her daima önüme çıkıyor, engel oluyor... Dışım: ...Yoksa her dövülen, her aç, muhtaç, cahil, hakkına tecavüz edilen Türkün yardımına sen mi koşacaksın? Hankı birine yetişirsin?.." [1, s.12-13].

Ə.Ağaoğlu İçim deyə yaratdığı türkçülük və türk birliyi fəlsəfi düşüncəsi ilə alovlanıb-yanan alleqorik obrazını bir xətt üzrə davam etdirir: milli azadlıq carçısı, ədalət və vicdanın ümumiləşmiş obrazı kimi. Amma Dışım deyə yaratdığı alleqorik obrazı isə bütün pis niyyətlərin, eqoistliyin fonunda təsvir zamanı şaxələnən xətt metodundan istifadə edir və bu halların baş vermə səbəblərini dərk etməyə çalışır: " ...Dışımın bu kadar egoist ve hotkam olması nereden geliyor? İşte asıl tetkik edilecek nokta..." [1, s.13]. Bu parçadan aydın göründüyü kimi, yazıçı sətiraltı anlamda özünə verdiyi, əslində cavabını çox yaxşı bildiyi və bütün yaradıcılığı boyu təhlilinə çalışdığı, "türk milli kimliyinin, milli müstəqillik duyğularının" zaman-zaman məhv edilməsi səbəblərini bu düşündürücü sual vasitəsi ilə açıq qoyaraq, sözünün sonunda üç nöqtə qoymaqla (...) məsələnin ciddi tədqiqini gələcək nəsillərə həvalə edir.

"Türk birliyi" məfkurəsi Ə.Ağaoğlunun düşüncələrini o qədər içdən məşğul edirdi ki, Dışım (yad təsir, kənar//ətraf aləm,

yadelli və onların törətdiyi mənfiliklər və s.) deyə yaratdığı obrazı da bəzən həmin dillə dindirir: "... Yoksa her dövülen, her aç, muhtaç, cahil, hakkına tecavüz edilen Türkün yardımına sen mi koşacaksın? Hankı birine yetişirsin?.." Yəni yazıçının bu qənaəti "tək əldən səs çıxmaz" atalar misalının bəyanına bənzəyir. Dışın dili ilə deyilən bu misalda açıq-aydın "Türk birliyi" ideyasına çağırış motivi göz önündədir. Belə olan təqdirdə yazıçının eqoist düşüncə tərzinin (yəni tək özünü düşünən, özünü sevən) simvolu kimi yaratdığı Dışının təqdimatında **ziddiyyət** yaranır.

Ə.Ağaoğlu həyatında baş verən siyasi sarpmalarda da günahı məhz Dışında, yəni yad təsirlərdə görür. Birbaşa olaraq şahidi və iştirakçısı olduğu hadisələrin axışı müvəqqəti də olsa onu ağuşuna alır, tələsik qərarlar çıxarmasına və sonra həqiqətin əsl tərəfini görüncə, doğru yola yönəlməsinə səbəb olub. Özünün də qeyd etdiyi kimi Türkiyənin Qurtuluş Savaşına olan inamsızlığı onda məhz Əli Kamal yaratmışdır [1, s.9]. A.Holly Şisslerin "İki İmperatorluq arasında Əhməd Ağaoğlu" əsərində ötən əsrin ən mühüm mütəfəkkirlərindən biri olan Ə.Ağaoğlunun düşüncə dünyasını elə Ağaoğlunun özünün müəyyən etdiyi, Qərbli üçün ziddiyyətli görünən fərqli xüsusiyyətlər əsasında şərh edir. İlk dövründə iranlı kimi düşünən, daha sonra türk kimliyini müdafiə edərək əsərlər yaradan Ağaoğlu; 1905-ci il Rusiya inqilabı, 1908-ci il İkinci Konstitusiya Monarxiyası, 1917-ci il Sovet inqilabı, I Dünya Müharibəsi və Milli Mübarizə ilə Yeni Türkiyə Cümhuriyyətinin qurulmasını yaşamış, bu tarixi hadisələrlə bağlı təhlilini qələmə almış, ən azı beş dili tam mənimsəmiş, birdən çox universitet diplomu almış, universitetlərdə dildən ədəbiyyata, millətçilikdən hüquq tarixinə qədər müxtəlif fənlərdən dərs deyən bir ziyalı olduğu qeyd edilən Şisslerin əsəri Ağaoğlunun iki imperiya (Rus Çarlığı və Osmanlı İmperiyası) arasındakı düşüncə səyahətini bir çox fərqli rakursdan izah edir. Şissler 20-ci əsrin əvvəllərində "kimlik" kimi minlərlə parçanın çətinliklə bir araya gəldiyi və bunun çox axıcı bir əsasda olduğu Ağaoğlunun bu problemi "türk kimliyi" ilə həll etmək üçün yollar axtarmasını təbii bir inkişaf kimi qiymətləndirir [9, s.91-92]. Süjeti rus alimi V.İ.Seroşevskinin "Yakutlar. Etnoqrafik tədqiqat təcrübəsi" adlı

kitabında* yer alan bir olonxo əsasında formalaşan "**Tanrı dağında**" ("Tanrı hüzurunda") əsrində Ə.Ağaoğlunun "Türk birliyi" məsələsinin qoyuluşunun tam başqa çalarları ilə qarşılaşırıq. Belə ki, əgər "Ben neyim" əsərində məsələnin həllinə "milli kimliyini tanıma" və ya "özünütəsdiq" prizmasından yanaşılaraq simvol və rəmzlərin, bədii istifadə üsullarının (bənzətmə, müqayisə və s.), alleqorik metodun, sətiraltı məqamların köməyi ilə səy edilirsə, "Tanrı dağında" əsərinin süjeti mifologiyaya dayanmasına baxmayaraq, "bu birliyə" çağırış Kamın (Şamanının) və gənclərin dili ilə həm simvolik, həm də birbaşa anlamda təqdimi maraq doğurur. Əsərin əsas süjet xəttini Tanrının zamanı ilə türkləri birlik formasında güclü yaratması, sonradan onları gücsüzləşdirmək üçün məqsədli olaraq ayrı salınmaları, Tanrının onları bir daha birləşdirmələri üçün yardım diləməyə getmələri təşkil edir. Bütün bu hadisələri Ə.Ağaoğlu əsas obraz kimi yaratdığı Şamanın dili izah edir: "...Yalnız Tanrı için urulan soluklar içten gelir!.. Bil, anla ki bende, sende, bu dağlarda, taşlarda, kuşlarda, ağaclarda yaşayan bir asıl vardır. Biz o aslın ayrı şekilleriyiz! Aslımız bir olduğu için ayrı ayrı gözüküyorsak hakikatte biriz.. böylece asla çarpan soluk herşeyi kendıne rameder " [1, s.54].

Yazıçı simvolik anlamda Kamın (Şamanın) dili ilə dediyi bu fikirlə cövhəri (dili), aslı (kökü), soluğu ("nəfəs"i) eyni olan Tanrı övladları sayılan türklər əslə qayıtsalar, birliklərini bərpa etsələr, hər şeyi ram edə bilərlər (güclənərlər) mesajını ötürür. Hətta onların "birlik ruhunu" bərpa etmək üçün tarixi yaddaşlarını, vaxtilə böyük güc olduqlarını dəfələrlə yada salmaqdan da çəkinmir. Tanrı dağına getdikləri zaman yolüstü uğradıqları atası Tanrının qulu Ellik olan, Tanrının çox sevdiyi Ulusda gecələməli olarkən qədim türk adət-ənənələrini, zamanilə türkün mənsub olduğu coğrafi ərazilərin təsvirini verərkən tapmaca şəkilli yarışma metodundan istifadə edərək oğlan və qızlardan ibarət gənclər arasında bilik yarışı keçirməklə türkün milli kimlik duyğularını bir daha qabartmağa səy edir. Qızlar:

* Sibir və Altay türklərinin mifologiyasını, dilini, dinini, adət-ənənələrini öyrənən V.İ.Seroşevskinin "Якуты. Опыт этнографического исследования" kitabı 1896-cı ildə Sankt-Peterburqda nəşr edilmişdir.

Bozkır denizinde oturan
Şimal denizine bağlanan
Yanları batı denizine varan
Etekleri cenub denizine çarpan
Işığı Kil dağı,
Yüzü orta yayla,
Göğsü oddan güneş –
Biliniz, bakalım, bu nedir?

Oğlanlar hemen:
− Türk yurdu! Türk yurdu, diye bağırışdılar [1, s.59].
Və ya oğlanlar:

Beyaz saçan ayı var
Değişen geceleri...
Düz, güzel ormanları var
Öteki tarafı görünmez
Uzunluğu ölçülmez
Çiçekli otlar taşıyan
Düz yerleri var!

Qızlar tapa bilməyincə, oğlanlar: "Sekiz köşeli ana kainat" – deyə bağırışdılar [1, s.59].

Əsərdən gətirilən bu parçalarda Ə.Ağaoğlunun türklərin tarixən mənsub olduqları geniş yerləşmə məkanlarının coğrafi xəritəsini bədii fiqurlardan məharətlə yararlanaraq etdiyi təqdimatının da əsas qayəsi "kökə", "özə" qayıtmaq üçün "milli kimliyi"ni dərk etmək, dədələrinin mənsub olduğu, at oynatdığı torpaqları, vaxtilə türklərin sahib olduqları maddi və mənəvi üstünlükləri xatırlatmaq və yaddaşı oyatmaqla "türk birliyinə" çağırış kimi ali məqsədə xidmət etməsi diqqət çəkir: "Vaktile böyle değildi, Tanrı kulluğu vardı. Karakurum budunu korkmazdı, özüsözü birdi, il esirgenirdi, arada hove ve imecilik (yani umumun herkese yardımı) vardı, birisi diğerinin hayrına koşardı, birlikde koşardı, birlikde oturulup birlikde kalkılırdı. Ve işte o zamanlar Karakurum **sağa sola, arkaya ve öne ağa** idi! Fakat sonraları düzen bozuldu: İli aranmaz oldu, herkes başına kaldı... Karakurum yıkıldı ve budunu zelil oldu [1, s.62].

Əsərdən gətirdiyimiz bu parçada Ə.Ağaoğlunun həm qürurunun, həm də qəlb göynədən "ahı"nın şahidi oluruq. Aşağıdakı xronologiyaya diqqət etsək, yazıçıya haqq vermiş olarıq: Şaman oğulları (875-999)*, Qəznəvilər (963-1187), Səlcuqilər (XI-XIV), Çingizilər (VI), Xarəzmşahlar (1067-1224), Atabəylər (1136-1250), Elxanilər (1256-1336), Osmanlılar (1299-1922), Teymurilər (1370-1506), Qaraqoyunlular (1375-1468), Ağqoyunlular (1376-1508), Səfəvilər (1501-1524), Əfşarlar (1736-1802), Qacarlar (1794-1925) və s. bütün adları çəkilən bu türk qövmünə aid sülalələr Yaxın və Orta Şərqdə, Qafqazda, Azərbaycanda, Hindistanda, Əfqanıstanda, Pakistanda, Mesopotamiyada, İranda və s. geniş ərazilərin Ə.Ağaoğlu təbirincə desək: "sağın, solun, önün, arxanın" ağası idilər. Hətta onun: "Birisi digərinin xeyrinə çalışardılar. Birlikdə oturub, birlikdə qalxardılar" fikri vaxtilə bu "birliklərin" mövcud olduğu faktının bədii üslubda təqdimidir.

Tarixdən bildiyimiz kimi, ilk türk xaqanlığı (birliyi) səhra xanlıqları arasında yaranıb. Bu da tarixi mərhələnin 556-603 illərinə təsadüf edir. Sonradan Xəzər xanlığı, Karluq xanlığı, Tyan-Şandan Türkeş xaqanlığı, Aşina tayfası da bu "birliyə" qoşulublar. Amma sonradan türkün qüdrətlənməyini hər zaman özləri üçün təhlükə kimi qəbul edən ətraf güclər "siyasi oyunlar" sayəsində onlar arasında məqsədli ixtilaf yaradaraq, çəkişmələr və qarşıdurmalarla türk xanlıqlarını parçalamaqla zəiflətməyə müvəffəq olurdular.

Türk tayfaları dünyada ən güclü və cəsur döyüşçüləri ilə tanınan yenilməz, qüdrətli və güclü orduya sahib idilər. Türk tayfaları yenidən, dəfələrlə bu gücləri birləşdirərək "birlik" yaratmaq istəsələr də alınmayıb. Çünki hər tayfa özünü güclü saydığından və özünü "birliyin" başında görmək istədiyindən, hər dəfə bu məsələ çəkişmələrlə, iğtişaşlarla müşayiət olunduğuna görə bu istək yarımçıq qalıb. Hələ VI əsrdə İltəris xan tərəfindən çağırılan Qurultayda Mengu daşa döyülən "BİRLİK" möhürünü,

* Əhməd Ağaoğlunun "İranda Türk dövlətləri" əsərində "Şamanlar" türk sülaləsi kimi, kitabın izahlar hissəsində isə hakimiyyətdə olan ilk fars sülaləsi kimi qeyd olunub (Ağaoğlu. 2007: 124 və 365).

Güntəkinin yazdığı "Birlik Nizamnaməsini" bu səbəbdən həyata keçirə bilmədilər.

Ə.Ağaoğlu Türk tayfaları arasında baş vermiş bu tarixi hadisələri bədii üslubda əsərinə gətirməklə, onların daha təsirli və insan duyğularını oyadan bir tərzdə təqdim etməklə həmin hadisələri yaxşı dərk etməyə yardım etməklə yanaşı, Türkün ədəbi tarixini, ədəbi yaddaşını yaratmağa nail olmuşdur. Məsələn, mifoloji süjet əsasında formalaşan "Tanrı dağında" əsərində yazıçı fikirlərinin təqdimində mifoloji məkanlardan, obrazlardan, simvol və rəmzlərdən çox ustalıqla istifadə etməklə, Türk tarixində baş verən hadisələrin acı həqiqətlərini ədəbi yaddaşa həkk etməklə bu yanlışların bir daha təkrarlanmaması üçün gələcək nəsillərə ötürmüşdür. Yazıçıya görə, "Türk birliyini" yaratmaq üçün türk sülalələrində milli şüur (kimlik) formalaşmamışdır. Onun fikrincə: "Şərqin bütün tarixi isbat edir ki, əgər türk sülalələrində milli şüur olsaydı, bütün bu cərəyanlar türkcə olacaqdı və bu surətlə türk irqi milliləşərək bütün Şərqə hakim olacaqdı. Əlişir Nəvainin əsəri isbat edir ki, türk lisanında böylə bir irqi gələcəyə daşımaq və bəsləmək qabiliyyəti vardı. Fəqət nə yazıq ki, məhz bu şüur olmamışdır" [2, s.4-5].

Bəzən Ə.Ağaoğlunun əsərlərinə diqqət etdikdə "Türk birliyi" məsələsində **fikirlərinin haçalandığının** şahidi oluruq. Məsələn, **bu haçalanma iki istiqamətdə, həm də iç-içə inkişaf edir.** Zamanı ilə mövcud olan "Türk birliyinin" dağılmasının və yenidən yarana bilməməsinin səbəbləri haqda yazıçının əsərlərinə istinadən gəldiyimiz yekun nəticə aşağıdakılardır:

1. Milli şüurda "türk birliyi" anlayışının tam formalaşmaması;

2. Türkün birləşməsi sayəsində güclənməsindən vahiməyə düşərək, hər vəchlə mane olan kənar qüvvələrin (siyasi oyunlar) aktivliyi.

Ə.Ağaoğlunun əsərlərində Türk tarixinin acı həqiqətlərini göstərən **bu iki səbəb** paralel inkişaf etdirilərək, onun yaratdığı dəhşətli nəticələri (Sibir türklərinin, Krım türklərinin və b. assimilyasiya edilmələrini) sətiraltı anlamlarda, mifoloji yanaşmalarla təqdiminə çalışma cəhdləri yazıçının sənətkarlıq qabiliyyətini təcəssüm etdirir. Məsələn: Kamlar (Şamanlar) Tanrıya dağılmış

birliyi yenidən bir araya gətirmək üçün yalvarıb, yol göstərmələrini xahiş edincə, cavabında Ulu Toyon demiş: " − Yolmu gösterim? **İller arasında, seni benimsedim. Tanrı ilisen dedim, budunların budunu ol, klavuzluk yap**, yaratılışı koru, ben de senin yanında olum, yaratılış üzerindeki ağalığını koruyayım!.. Bu söz birliğine sen baktıkca ben de sana baktım, yardımçın oldum, dünyanın bir ucundan öteki ucuna kadar her yana adamlık götürdün, bahtiyarlık verdin. Fakat bir zaman geldi ki sen bu söz birliğine bakmadın, beni unuttun... Sonra sende istek de kalmadı, babalarımızda istek vardı ve dünyanın bir ucundan ötekine ok kibi ox kimi sıçrardı!.. Çünki istek, bütün zorların, bütün küvvetlerin annesidir... Fakat sen onu kaybettin, zorbalara uydun! Zorbalığa tapdın!.. [1, s. 67].

Əsərdən gətirilən bu parçada "zorbalığa tapdın" deyimi ilə yazıçının kənar təsirlərə işarəsi aydın görünməkdədir.

Ə.Ağaoğlunun "Könülsüz olmaz" əsərində türkçülük və "türk birliyi" ideologiyasının yarana bilməməsi məsələlərinə olan yanaşmasında səbəb kimi açıq-aydın kənar təsirlərin rolunu qeyd etməsi zaman və məkan baxımında doğru gəlinən nəticə dəyərindədir.

Nəticə. Bütün bu təhlillərdən belə qənaətə gəlmək olar ki, "türk birliyinin" yaranması üçün zəmin ola biləcək "milli şüurun", "milli kimliyin" formalaşa bilməməsi də məhz bu kənar qüvvələrin apardıqları iyrənc siyasətlə birbaşa bağlı idi. Çünki, bu məlun qüvvələr hər zaman "parçala, hökm sür" devizi ilə özlərini siyasi arenada saxlaya bilən, başqalarının arasına nifaq salmaqla qardaş qırğınından həzz alan misginlərdir.

"Könülsüz olmaz" əsəri, eyni zamanda "Türk birliyi"nin gerçəkləşəcəyinə qəlbən, ruhən inanan və gələcək nəsli də bu simdə kökləyən bir Turan sevdalısının arzularının kodeksidir. Ə.Ağaoğlu "türk birliyi" ilə bağlı öz arzularını Turqut obrazı vasitəsilə, hayqırmaqla: − "Ah, zalımlar! Ah, alçaqlar! Bir gün gələcək cəzanıza çatacaqsınız!" − bəyanı ilə istibdadın gələcək taleyinin dəqiq düsturunu vermişdir. Bu istibdadın məngənəsində "milli kimliyini" belə tanıma səadətindən məhrum edilmiş, bütün maddi və mənəvi sərvətləri rus imperializmi, fars şovinizmi və s. bu kimi insanlıqdan kənar güclər tərəfindən mənimsənilmiş türk

xalqlarının da bu zülmlərdən qurtula biləcəyinə böyük inam bəsləyərək: “Ah kardeşim ne mutlu günler olacak! Nihayet Türkler de diğerleri gibi baskı ve esaretten kurtulacaktır. Herkes gibi özgür ve onurlu bir hayat yaşayabileceğiz” − ideyasını aşılayır [1, s.91].

XX əsrin əvvəllərində Ə.Ağaoğlu tərəfindən deyilmiş bu fikirlərin çağdaş günümüzlə eyniliyi insanı yaxşı mənada təəccübləndirir. Belə ki, bütün türk dünyası kənar güclər tərəfindən zaman-zaman özlərinə qarşı aparılan iyrənc siyasi oyunların şahidi olunca və bu həqiqətləri dərk edincə “milli şüurun” oyanması mərhələsini arxada qoydular. Onun yaradıcılığından ana xətt kimi keçən “türk birliyi” ideyası başda Azərbaycan və Türkiyə dövlət başçıları olmaqla, bütün türk dövlətləri tərəfindən böyük sürətlə həyata keçirilmə prosesinə qoşulub.

Rahat uyu, TURAN SEVDALISI! Biz zülm və əsarətdən xilas olmuşuq. Sərbəst və şərəfli həyat yaşayırıq.

İstifadə edilmiş ədəbiyyat:

1. Ahmet Ağaoğlu. Ben neyim. Tanrı dağında // Ağaoğlu Külliyatı:1, İstanbul, 1939, 69 s.
2. Ahmet Ağaoğlu. İran ve İnkilabı // Ağaoğlu Külliyatı: 3, Ankara: Zerbamat Basımevi, 1941, 118 s.
3. Ahmet Ağaoğlu. Gönülsüz olmaz. İstanbul: Güven Basımevi, 1943, 48 s. İkinci basış.
4. Ahmet Ağaoğlu. Bir türkçünün trajik öyküsü (Hüseyin Sadoğlu) // “Türk Yurdu” dergisi, Ocak 2011, yıl 100, sayı 281. https://www.türkyurdu.com.tr
5. Əhməd bəy Ağaoğlu. Qafqazda milli məsələ // Məqalələr toplusu. Bakı: Mütərcim, 2019, 276 s.
6. Nəhəng fikir və əməl adamlarından biri – Əhməd bəy Ağaoğlu. Bakı: F.Köşərli adına Uşaq kitabxanası, 2019, 35 s.
7. Əziz Mirəhmədov. Əhməd bəy Ağaoğlu. Bakı: Ərgünəş, 2014, 264 s.
8. Haklı Salih Zeki. Ahmet Ağaoğlu’nun Batılaşma düşüncesinde Türkiye’nin toplumsal yapısı ve kültürel değişimi. https://www.dergipark.org.tr
9. Ada Holly Shissler. İki İmparatorluk Arasında Ahmet Ağaoğlu ve Yeni Türkiye. Çev. Taciser Ulaş Belge. İstanbul: Bilgi Üniversitesi Yayınları, 2005, 369 s.

Nazakat Huseynova

THE IDEAL OF "TURKIC UNITY" IN THE CREATIVITY OF AHMET AGAOGLU

Summary

The idea of “Turkic unity” and “Turkism” is the main direction of Ahmet Agaoglu’s creativity. In his works, we meet with the representation of this ideology both in the subconsciously symbolic, and in the direct, and in the allegorical sense, which was considered appropriate from the point of view of time and space.

From time to time, the turkophobic powers, fearing of the existence and unification of the Turks, tried with all their might to make them forget their language. It was because “language” is the existence of every nation. A nation that has forgotten its language is considered destroyed. The Turkic peoples experienced the bitter consequences of this oppression during the Arabian, Persian and Russian invasions. They, having endured all the suffering, retained their language even during the period of the predominance of Arabic, Persian and Russian, when Turkic was banned, and correspondence was conducted mainly in other languages. Even now, the Turks living in Iran preserve their native language in the most difficult conditions, without their schools and universities.

According to A.Agaoglu: “The reason for the existence of nations is not culture/civilization, but the concrete existence of the nation, and above all, the language. In other words, the factors that create and maintain “national identity” are not spiritual, but material”.

Keywords: Ahmet Agaoglu, “Turkic unity”, “Turkism”, ideal, national identity

Назакет Гусейнова

ИДЕАЛ “ТЮРКСКОГО ЕДИНСТВА” В ТВОРЧЕСТВЕ АХМЕДА АГАОГЛУ

Резюме

Идея «тюркского единства» и “тюркства” – главное направление творчества Ахмеда Агаоглу. В его произведениях мы встречаемся с представлением этой идеологии и в подсознательно-символическом, и в прямом, и в аллегорическом смысле, что считается целесообразным с точки зрения времени и пространства. Время от времени державы, опасающиеся существования и объединения тюрков, в основном всеми силами пытались заставить их забыть свой язык. Потому что «язык –

бытие каждой нации». Нация, позабывшая свой язык, считается уничтоженной. Тюркские народы испытали на себе горькие последствия этого гнета во время арабского, персидского и русского вторжения. Они, претерпев все страдания, сохранили свой язык даже в период преобладания арабского, персидского и русского языков, когда тюркский был запрещен, а переписка велась в основном на других языках. Даже сейчас тюрки, живущие в Иране, сохраняют родной язык в тяжелейших условиях, без своих школ и университетов. По словам Ахмета Агаоглу: “причиной существования наций является не культура/цивилизация, а конкретное бытие нации, и прежде всего – языка”. Иными словами, факторы, создающие и поддерживающие национальную идентичность, являются не духовными, а материальными.

Ключевые слова: Ахмед Агаоглу, “тюркское единство”, “тюркство”, идеал, национальная идентичность